# AZAD SÖZ və AZMIŞ SÖZ

***Rəvayətə görə dünya sözlə yaranıb!***

***Allah-Təala "ol" deyib və hər şey olub!***

***Deməli, söz müqəddəsdir, çünki Allah da ondan istifadə edir!***

***Deməli, söz qüdrətlidir, çünki bu boyda dünya və dünyadakılar onun vasitəsilə yaranıb!***

***Amma sözün müqəddəsliyini və qüdrətini ondan istifadə edənlərin hamısı anlayırmı, bilirmi?***

❖ ❖ ❖

Sözün müqəddəsliyi bir də ondadır ki, bir-birimizlə onun vasitəsilə ünsiyyət qururuq, fikir, məqsəd, istək, hiss, duyğu, sevinc və s. hisslərimizi bir-birimizə onun vasitəsilə çatdırırıq!

Əl hərəkətlərinin, mimika və jestlərin ümidinə qalsaydıq, nə qədər çətin duruma düşərdik!

Axı, ən zərif və incə hissləri yalnız xüsusi sözlərlə ifadə etmək mümkündür!

Nizami Gəncəvi də "inci tək saf sözləri seçməyi" tövsiyə edərdi!

**Bəs bu müqəddəsliyi, incəliyi və lətafəti qoruyub saxlamağa borclu olduğunu hamı başa düşürmü?**

Faktlar göstərir ki, heç də yox!

*Söz həm də düşüncənin ifadəsidir!*

*İnsan öz düşüncəsində sərbəstdir, nə düşündüyünü yalnız özü bilir!*

*Əgər düşüncə sərbəstdirsə, onun ifadəsi də azad olmalıdır!*

*Amma söz ictimai əhəmiyyət daşıyandan sonra daim onu buxovlamağa, idarə etməyə, boğmağa çalışıblar.*

*Söhbət mətbu sözdən gedir.*

Hətta "Əkinçi" qəzetinin "senzurası" da onun özündən əvvəl yaranmışdı!

Sözün gücünü bilən hökm sahibləri onu daim ram etməyə, idarə etməyə, imkan daxilində özlərinə xidmət etdirməyə çalışmışlar. Onlara sərf etməyən sözün, deməli fikrin, faktın, hadisənin ictimailəşməsinin qarşısını almışlar!

*Senzura "qayçı" və "ütü" funksiyasını daşıyırdı. Artıq sayılanı kəsib atar, nahamar sözləri və ifadələri ütüləyərdi. Bəlkə də yeganə müsbət cəhəti söyüşün mətbuata çıxmasının qarşısını da almasında idi.*

*Bütövlükdə isə söz azad və buxovsuz olmalıdır!*

*Ona nə "qayçı", nə də "ütü" dəyməlidir!*

Vacib bir məqamı isə heç zaman unutmayaq: azad söz heç də məsuliyyətsiz söz demək deyil!

## SÖZ AZADLIĞI VƏ SÖZ ÖZBAŞINALIĞI

Qəzetdə və internetdə yazılanları, televiziya və radioda səsləndirilənləri çoxları oxuyur və dinləyir: yaşından, cinsindən, dinindən və cəmiyyətdəki mövqeyindən asılı olmayaraq hər kəs!

**Bu, deyilən sözün məsuliyyət yükünü müəyyənləşdirir.**

**İnsan nə qədər qəzəbli və duyğulu olsa da, ictimai şəkildə söylədiklərinin fərqində olmalıdır!**

*Əvvəla, özünə hörmət etməlidir. - Özünə hörmət edən kəs başqası eşidə (oxuya) bilən yerdə söyüş söyməli, kiminsə ünvanına təhqiramiz ifadələr işlətməli deyil!*

*Unutmaq olmaz ki, deyilən hər söz, ifadə həm də onu söyləyənin şəxsiyyətindən, daxili mədəniyyətindən, ən əsası, ibtidai tərbiyəsindən xəbər verir!*

*Həzrəti Əlinin (ə.s) məşhur deyimi var: "Danış səni tanıyım"!*

Ola bilsin ki, sən söyüş söymək, kiminsə daldasında asıb-kəsmək, aşağılamaq istəyirsən! Tərbiyəli insan həm də nəzərə almalıdır: ətrafındakılar (səni eşidənlər və oxuyanlar) söyüş və təhqir eşitmək istəyirlərmi? Onlar buna layiqdirlərmi?

**Məhz bu məqam ictimai sözün tərbiyəli, həyalı və abırlı olmasını zəruri edir! Tərəflərdən birinin (deyənin, yazanın) söyüş söymək, təhqiramiz ifadələrlə danışmaq istəyi azdır!**

Üçüncü tərəf(lər) də bunu "qəbul etməyə" ( eşitməyə, oxumağa) hazır və razı olmalıdır!

Adətən, insanlar üzbəüz dayananda söyüş və təhqirdən çəkinirlər. Çünki nəticəsi məlumdur! Qarşındakı hətta nə qədər zəif və qorxaq olsa belə, cavabını verəcək! Əvvəlcə dillə, boğaza yığılanda isə soyuq silahla!

Belədə məsələ cinayətlə bitir! Tərəflərdən biri, yaxud hər ikisi ciddi zədə alır, yaxud həbsxanalıq olur!

**Əlçatmayan yerdən söymək isə asandır.**

**Hərçənd ki, "əlçatmayan yer" anlayışı yoxdur! Çünki qanunun əli hər yerə çatır!**

**Bu gün bəziləri sosial şəbəkəni "əlçatmaz" sayırlar.**

**Amma nahaq yerə!**

Görün ölkəmizdə sosial şəbəkədəki təhqiramiz ifadələrə görə neçə səmət adamı bir-birini məhkəməyə verərək cərimələtdi?

Azərbaycandan kənarda yaşamaq isə hələ tam cəzasız qalmaq demək deyil!

*Hər şeyin zamanı var!*

*Necə ki, oldu!*

Söhbət insanın qəsdən (həm də ictimai formada) başqasını təhqir etməsindən şüurlu şəkildə çəkinməsindən gedir!

**Bəyəm tərbiyəli olmaq üçün kimdənsə qorxmaq vacibdir! Axı, sosial şəbəkədə yazışanların heç biri ibtidai tərbiyəyə ehtiyac duyan insanlar sayılmır!** Doğrudanmı fikrini bölüşəndə, kiməsə çatdırmaq istəyəndə hökmən söyüş və təhqir elementlərindən istifadə edilməlidir?

Normal danışmaq və yazmaq olmazmı?

Əgər demokratik Azərbaycan mətbuat və söz azadlığını, fikir plüralizmini təmin edibsə, bunun sərbəstlikdən doğan digər xoşagəlməz cəhətlərindən də istifadə etməliyik?

*Doğrudur, sosial şəbəkə mətbuat deyil! Amma ora da bir söz meydanına çevrilib!*

## Sözün də su kimi lətafəti var




*Azad və sərbəst söz meydanına!*

*Niyə söyüş və təhqir elementlərini və hallarını bu meydana sürükləməliyik?*

**Gəlin açıq etiraf edək: heç birimiz söyülmək və təhqir olunmaq istəmirik!** Onda başqalarını niyə söyməli və təhqir etməliyik? Yaxud söyüş, təhqir oxumaq və eşitmək məcburiyyətində qoymalıyıq? Bunsuz fikrini ifadə etmək mümkün deyil?

Baxın, cinayətkar əlindəki bıçaqla cərrah əlindəki bıçaq mahiyyətcə eyni deyil! Biri yaralayır - qan tökür, digəri kəsir, amma həyat verir!

Söz azadlığı da belədir!

**Azad söz söyüş və təhqirə xidmət edəndə gözdən düşür, insanı ciyrindirir, azad fikrə qulluq edəndə isə fayda gətirir!**

**Təhqiramiz söz həm də yolunu azmış söz sayılır!**

Başqa bir vacib məqam: Konstitusiyamız "Hər kəsin fikir və söz azadlığı vardır" prinsipini təsbit edir, eyni zamanda, "İnsan ləyaqəti qorunur və ona hörmət edilir" prinsipini heç də ondan aşağı tutmur.

Vaxt var idi Avropanın özündə sözlə şərəf və ləyaqət arasındakı qarşıdurma qanla nizamlanırdı: təhqir olunanlar məsələni duel qaydasında həll edirdilər!

Sonradan bu yol vəhşilik sayıldı, ondan imtina olundu. Özü də hər ikisi - söz azadlığı , şərəf və ləyaqətin qorunması uca tutuldu, bu tip qarşıdurmaların məhkəmə qaydasında həlli məqbul sayıldı.

Çünki:

*Hər ikisi vacibdir!*

*Hər ikisi yüksəkdə dayanır!*

*Hər ikisi qorunmalıdır!*

**Söz azadlığını söz özbaşınalığına çevirmək olmaz!**

**Şəxsiyyəti və ləyaqəti olanlar başqalarının da bu hisslərinə hörmətlə yanaşmalıdırlar!**

Üstəlik, söz təhqirə və söyüşə çevriləndə özü də hörmətdən düşür!

Həm də unutmayaq ki, sosial şəbəkənin söyüş meydanına çevrilməsi onun özünü də gözdən salaraq sıradan çıxara bilər!

## SATIN ALINMIŞ SÖZ

**Söz mənəvi kateqoriyalar sferasına daxildir: nə canı var, nə qanı, nə də maddiyyəti!**

**Amma gücü, təsiri daim açıq-aşkar duyulur!**

Bu gücdən istifadə etmək istəyənlər də çoxdur!

Hərdən belələrinin sırasına açıq söz deməyə hünəri və cəsarəti çatmayanlar da qoşulur:

- *Arxada gizlənib sözünü başqaları vasitəsilə dedirtmək istəyənlər;*
- *Yalan danışan, şər-böhtan atan, hətta bəzən sözü üzə deməyə kişiliyi çatmayanlar;*
- *Kiminsə pullu sifarişini icra edənlər!*

*Adətən, "sifarişçilər" "icraçılar"ı pulla satın alırlar!*

*Beləliklə, "satın alınmış söz" meydana çıxır.*

**Azad söz doğru, həqiqi, qərəzsiz, tərəfsiz və obyektiv olmalıdır!**

**Satılmış söz isə azadlığını itirərək "kölə sözə" çevrilir!**

**Qul psixologiyalılara xidmət edən "kölə sözə"!**

*"Reket jurnalistika"ya qulluq göstərən söz "yolunu azmış", "satılmış söz" sayılır.*

*Çünki bu halda söz simasını itirir, həqiqəti yazmır, söyləmir!*

*"Reket jurnalist" üçün (onların demək olar ki, heç birinin jurnalist təhsili olmur, mətbuata asan qazanc niyyətilə gələnlərdir) həqiqəti heç zaman ucada dayanmır!*

**Onlar pula sitayiş edənlərdir!**

**İstənilən adamı söyməyə, şərləməyə, ağa qara deməyə hazırdırlar!**

Həm də heç nəyi, heç kəsi nəzərə almadan: təki pul qoparsınlar!

Hətta beləlləri qadınları da özlərinə şərik edərək onları da həbsxanaya sürükləməyə hazırdırlar!

Mətbuat və söz azadlığı, jurnalistikanın qayda, ənənə və prinsipləri, qanunlar onlar üçün mövcud deyil!

Əslində, mətbu sözə, jurnalistikaya, insanlığa ləkədirlər!

**"Söz terroru" da bu qəbildəndir.**

Kimisə danışdırıb gizlincə səsini yazırlar (bunun özü qanun pozuntusudur), yaxud xəlvəti çəkiliş edirlər. Sonra bundan pul qoparmaq məqsədilə istifadəyə çalışırlar...

Yenə də sosial şəbəkə... Burada yerləşdirməklə hədələyirlər!

Neçə qadın şantaja məruz qalıb...

Neçə məktəbli intihar həddinə çatdırılıb...

Neçə "qurban" böyük məbləğdə pul ödəyib...

Bəlkə də belələrinin "mənəvi terrorçu" kimi qiymətləndirilərək cəzalandırılması daha ədalətli olardı...

**Axı, sən bu əməlinlə nəyisə düzəltmək, nəyisə dəyişmək, kimisə cəzalandırmaq istəmirsən! (Məhkəmə deyilsən ki, bu funksiyanı öz üzərinə götürürsən).**

Sensasiya yaratmağa çalışırsan.

Həm də zərər çəkənlərin (aldadılanların) sonrakı taleyini, onların yaxın və doğmalarının qəfil uğradıqları stress vəziyyəti nəzərə almadan.

Təəssüf ki, çox asanlıqla azad söz "mənəvi terrorçu"ya da çevrilə bilir!

**"Sifarişli söz" isə daha uzaq və məkrli niyyətlərə xidmət göstərir.**

Söhbət təkcə kiminsə hansı məmuru ləkələmək niyyətindən getmir.

Bəzən böyük şəbəkələr, hətta dövlətlər də "sifarişçi" qismində çıxış edə bilirlər.

Qeyd edək ki, bu "sifarişləri" icra etmək istəyənlərin sayı heç də az deyil! Əvvələ, bu halda ödənilən məbləğ böyük olur, ikincisi, söz azadlığı arxasında gizlənmək , demokratiyaya xidmət pərdəsinə bürünərək zahirən "obyektiv", "prinsipial", "barışmaz mübariz" qiyafəsində görünmək şansı da yaranır!

Təcrübəsiz insanların nəzərində!

*Məsələn, antiazərbaycançı şəbəkə tərəfindən gizli yolla maliyyələşdirilən bəzi beynəlxalq qurum və təşkilatlar (orada çalışan ayrı-ayrı siyasilər), "hüquq müdafiəçiləri", "siyasi mühacirlər", "5-ci kolon" üzvləri bu vasitə ilə xeyli pul qazanırlar!*

**Vətənpərvərlik hissindən məhrumlar, xislətlərində satqınlıq olanlar, azərbaycanlı olduqlarını unudanlar belə sifarişlərə daha tez və həvəslə səs verirlər!**

Ən pisi isə budur ki, hansısa ünsür vətəndən kənara çıxandan sonra müstəqil dövlətinə, xalqına xain mövqedə dayanaraq güzəranını satqınlıqdan çıxan pulla qurur!

*Guya bunlar "demokratiya axtaranlar"dır!*

*Guya bunlar "ədalət mücahidləri"dir!*

*Guya bunlar kimlərdənsə "qisas" alırlar!*

*Vətəni satmaqla!*

*Milləti satmaqla!*

*Dövləti satmaqla!*

**Həm də sözə, həqiqətə xəyanət etməklə!**

Söz müqəddəsdir, onu əyri işlərə sürükləmək olmaz!

Söz zahirən adi səslərdən ibarət olsa da, daxilən onu söyləyənlərin mahiyyətindən xəbər verir:

- *Abırlı adamın sözü də abırlı olur;*
- *Söz sahibi utanmayanda söz də utanmır;*
- *Xəstə söz xəstə ruhdan xəbər verir!*

**Həm də heç kəs unutmasın: müqəddəs sözü söyüşə çevirənlər cəzasız qalmırlar!**

Bunu yaxın-uzaq tariximiz də aşkar göstərir!

**Bəxtiyar SADIQOV**